# Şəhid leytenant Siyavuş Muradovun xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

**44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn leytenant Siyavuş Akif oğlu Muradovun xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən məlumat verilib.

Bildirilib ki, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət



nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər leytenant S.Muradovun şərəfli həyat və nümunəvi döyüş yolundan danışıblar. Şəhid zabitin qısa, lakin şərəfli həyat yoluna həsr edilmiş sənədli film nümayiş olunub.

Sonra məktəblilərin ifasında ədəbi-bədii kompozisiya təqdim edilib.

Şəhidin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan.- 2025.- 10 avqust (№166).- S.16.